Yeni Azərbaycan.-2022.-16 dekabr.-S.8.

# Azərbaycanın ilk şəhid qadın jurnalisti...

## Salatın Əsgərovanın doğum günüdür



*Yeganə BAYRAMOVA*

Bu gün Azərbaycanın Milli Qəhrəmanı, mərhum jurnalist Salatın Əsgərovanın doğum günüdür. O, 1961-ci il dekabrın 16-da Bakıda ziyalı ailəsində doğulub. 1979-cu ildə Bakı şəhərindəki Mikayıl Müşfiq adına 18 saylı orta məktəbi bitirib, elə həmin il o vaxtkı Azərbaycan Neft və Kimya İnstitutuna daxil olub. 1984-cü ildə geofizika ixtisası üzrə mühəndis diplomunu alıb.

1988-1989-cu illərdə Qarabağda baş verən hadisələr, azərbaycanlıların başına gətirilən bəlalar Salatın Əsgərovanı tamamilə fərli bir sahəyə - jurnalistikaya yönəltdi. O, 1984-cü ildə "Bakı", 4 il sonra isə "Molodyoj Azerbaydjana" qəzetində işləməyə başladı. Salatın Əsgərova öz məqalələrində ermənilərin ölkəmizə qarşı törətdiyi təxribatlardan, torpaq iddialarından yazırdı. O, "Molodyoj Azerbaydjana" qəzetinin əməkdaşı kimi müharibənin ilk günlərindən tez-tez cəbhə bölgəsinə gedir, qaynar nöqtələrdən reportajlar hazırlayırdı. Hər dəfə paytaxtda qoyub getdiyi körpə oğlunun varlığı da onu bu təhlükəli yoldan döndərə bilmirdi. Mərhum jurnalist hətta heç nədən qorxmadan dəfələrlə erməni kəndlərinə gedib sakinləri yanlış yoldan geri döndərməyə çalışmışdı.

Onun müharibənin qaynar nöqtələrindən hazırladığı reportajları geniş oxucu kütləsi qazanmışdı. Salatın Əsgərova imzası tanınır və sevilirdi. Amma...

1991-ci ilin yanvarın 9-da yenə səfərə yola düşdü. Növbəti reportajını hazırlamaq, həqiqəti çatdırmaq, Vətənə heç olmasa qələmi ilə yardım etmək üçün. Laçından Şuşaya gedərkən yolun 6-cı kilometrliyində - Qaladərəsi kəndi yaxınlığında düşmən onun olduğu maşını yaxın məsafədən atəşə tutdu, Salatın Əsgərova elə hadisə yerindəcə həlak oldu.

Vəfatından sonra Azərbaycanın qəhrəman qızı Bakıda Şəhidlər Xiyabanında dəfn olundu. Ölümündən sonra ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Hazırda Bakı şəhərində adına bir küçə var. Bakı buxtasındakı gəzinti katerlərindən biri də onun adını daşıyır.

Qeyrətli vətən qızı Salatından Vətən üçün göstərdiyi qəhrəmanlıqlar, hazırladığı reportajlar, bir də onun sənətini yaşadan oğlu yadigar qalıb...